# *Hulusi KILIÇ:* "907-ci düzəliş "tarixin zibilliyi"nə atılmalıdır"




**"ABŞ Konqresi tərəfindən 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş, nəhayət, "tarixin zibilliyi"nə atılmalıdır".**

Bu fikri Türkiyənin Azərbaycandakı keçmiş səfiri, Türkiyədə "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin nümayəndəsi Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Onun sözlərinə görə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə dialoq və səylər fonunda belə bir düzəlişin olması elementar məntiqə ziddir.

O qeyd edib ki, Bakıya münasibətdə qərəzli qərar ABŞ qanunvericiləri tərəfindən Azərbaycan ərazilərinin bir hissəsinin erməni işğalı altında olduğu, yüz minlərlə azərbaycanlının isə qaçqın və məcburi köçkünə çevrildiyi dövrdə qəbul edilib. "Təcavüz və işğalla qarşılaşan ölkəyə qarşı məhdudiyyətlərin tətbiq edilməsinin özü həddindən artıq subyektivliyin və ədalətsizliyin təzahürü oldu", - deyə H.Kılıç Qarabağ münaqişəsinin başa çatması ilə Bakı ilə İrəvan arasında möhkəm sülh üçün imkanların formalaşdığını, bunun isə 907-ci düzəlişin gündəmdə saxlanılmasını absurd etdiyini bildirib.

İMZA birliyinin nümayəndəsi Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünü xatırladıb. Bildirib ki, bu görüş çərçivəsində Ağ Evdə sülh sazişi paraflanıb və ABŞ Prezidentinin iştirakı ilə dövlət başçıları əlaqələrin normallaşdırılması prosesinə sadiq olduğunu bəyan ediblər.

H.Kılıç 907-ci düzəlişi həm Cənubi Qafqazda münasibətlərin normallaşmasına, həm də Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrə xələl gətirən "keçmişin rudimenti" adlandırıb. "Ağ Evin rəhbəri Donald Trampla Azərbaycan Prezidenti İlham Əliyev arasında dostluq münasibətləri hamıya məlumdur. Yaranmış vəziyyətdə ən doğru qərar Amerika lideri administrasiyası tərəfindən ABŞ Konqresinə 907-ci düzəlişin tam ləğv edilməsi təklifinin göndərilməsi görünür", - deyə o qeyd edib ki, anti-Azərbaycan düzəlişinin mövcudluğu da Cənubi Qafqazda mövqelərinin TRIPP layihəsi vasitəsilə möhkəmləndirilməsinə səy göstərən ABŞ-nin özünün maraqlarına ziddir.

H.Kılıçın sözlərinə görə, Amerika qanunvericiliyinə görə, ABŞ Prezidenti Vaşinqtonun siyasətinə zidd olan qərarların ləğvi təşəbbüsünü başlatmaq hüququna malikdir: "Donald Tramp bu hüquqdan ən qısa müddətdə istifadə etməli və Azərbaycana qarşı ədalətsizliyi, Cənubi Qafqazda sülhə təhdid amilini aradan qaldırmalıdır".

Azərbaycan.- 2025.- 27 dekabr (№273).- S.13.